**DOI: https://doi.org/10.59849/2957-3882.2023.2.119**
**UOT: 32, 327**

# AZƏRBAYCAN QƏRB VƏ ŞƏRQ DÜNYASINDA TOLERANTLIQ MƏKANI KİM

**Aynurə MƏMMƏDOVA***

***Açar sözlər :*** *tolerantlıq, qlobal, şərq, qərb, multikultural, sivilizasiya*

***"Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür".***
***Heydər Əliyev***

## XÜLASƏ

Məqalədə Azərbaycanın multikultural ənənələri və tolerantlıgı ilə Şərq - Qərb ölkələri arasında bir ölkə kimi tanınmasından bəhs edilir. Müstəqilliyini bərpa etdikdən sonra dözümlülük ənənəsinin , tolerantlıgın bərpasının təbligi və təşviqi istiqamətində Azərbaycan xalqının ölkə daxilinə və beynəlxalq aləmə yönəlik fəaliyyətindən bəhs edərək məqalədə bu istiqamətdə görülən işlər haqqında məlumatlara geniş yer verilmişdir.Tolerantlıq Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda bədii, psixoloji –mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi mövcuddur. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadıgı məkan olub. Həmçinin, ölkəmizdə xristian tarixi abidələri, alban kilsəsi, sinaqoq, proslav, katolik kilsələrin qorunub saxlanılması , onlara qaygı və diqqətin göstərilməsi tolerantlıgın bariz nümunəsidir. Habelə Heydər Əliyev Fondunun təşkilatçılıgı ilə keçirilən bir sıra beynəlxalq tədbirlər bütün dünyada respublikamızı tolerant ölkə tanınmasına səbəb olmuşdur. Ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır , ölkənin xristian və yəhudi icmalarının əsas dini bayramları münasibətilə təbrik edir. Bu səbəbdən bütün dövrlərdə və bu gün də ictimai siyasi quruluşundan asılı olmayaraq müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-əmanlıq və qarşılıqlı şəraitdə bir ailə kimi yaşayırlar. Bu gün Azərbaycan dünyada humanizm prinsiplərinə sadiq, tolerant, multikultural ölkə kimi tanınır. Respublikamızın əsrlərboyu bir çox fərqli sivilizasiyaların və mədəniyyətlərin qovşagında yerləşməsi, Asiya ilə Avropa arasında körpü rolunu oynaması burada mədəniyyətlərin müxtəlifliyinin yaranmasına səbəb olub. Bu gün Azərbaycanda tolerantlıgın alternativi yoxdur. Odur ki, mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünyada tolerant ölkə kimi tanınması qürurvericidir. Müasir Azərbaycan bu ənənələrə sadiqdirdir və bu bizim ən böyük sərvətlərimizdən biridir.

## Giriş

Qurucu rəhbər, qlobal lider, müzəffər komandan, 2003-cü ildə prezident seçilən İlham Əliyev Azərbaycani bu illər ərzində irəli apararaq ölkənin dinamik inkşafının sürətlə modernləşməsini, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyələnir. Ulu öndərin qorudugu, xilas etdiyi inkişaf yoluna cixardıg vətənimiz, məhz İlham Əliyev foneminin fitri idarəcilik və liderlik keyfiyyətləri sayəsində hazırda özünun parlaq yüksəliş dövrünü yaşayir. İlham Əliyevin düşünülmüş islahatları və müdrik qərarlari ilə həyatımıza yeni nəfəs, yeni həyat gətirib, Azərbaycanı inkşaf edən ölkələr siyahısına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qrup yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Bu gün beynəlxalq, ölkələr və regional səviyyəsində ən çox müzakirə olunan məsələlərdən biri də tolerantlıqdır. Zaman keçdikcə bu mövzu daha da aktuallaşır. Bu mənada tolerantlıq hər bir dövlət

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
E-mail: *aynuramammadova07@gmail.com*

üçün həm milli, həm də ümumbəşəri məsələdir. Görünür, elə bu səbəbdən də 1995-ci ildə UNESKO – nun qərarı ilə 16 noyabr dünyada Tolerantlıq Günü elan edilib. Tolerantlıq Günü Birləşmiş Millətlər Təşkilatının dünyada insanların davamlı sülh içərisində yaşaması naminə atdıgı addımlardan biri kimi xarakterizə edilə bilər (3.səh 1) Tolerantlıq olduqca geniş anlayışdır. O, həm insani münasibətlərin və cəmiyyətdə gedən proseslərin , həm də millətlərarası, dövlətlərarası , dinlərarası münasibətlərin bir çox cəhətləri kimi də anlaşıla bilər. Bu mənada tolerantlıq öz tarixi və yaşam tərzi ilə azərbaycanlıların və Azərbaycanın günüdür. Azərbaycan tarixən dinlərin və mədəniyyətlərin qovşagı olub, dini və etnik müxtəliflik zamanla ölkəmizin ən böyük zənginliyinə çevrilib. Çünki, Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşdugu tarixi məkan kimi indi də eyni funksiyanı ugurla yerinə yerinə yetirir. Azərbaycanda tolerantlıgın yüksək səviyədə olması həm də Qərb siyasətçilərinin və diplomatlarının etiraf etdikləri həqiqətdir. Azərbaycan xalqı özlüyündə , təbiətinə görə , öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir.

Dünyada bir sıra dövlətlər var ki, öz xalqının rifahi və inkşafi naminə həyata keçirdiyi bu və ya digər tədbirlərlə başqa ölkələr üçündə model rolunu oynayır. Həmin ölkələr siyahısında heç şübhəsiz doğma vətənimiz olan Azərbaycanda var.

Ölkəmiz bu gün tolerantlıq məkanı kimi dünyada tanınır. Xüsusəndə Azərbaycan son illər həyatın bütün sahələrində əldə etdiyi uğurlarla öyünə və başqalarına da nümunə ola bilər. İlham Əliyevin ölkəmizdə müxtəlif sahələrdə apardığı islahatlar onu göstərirki həyata keçirilən uğurlu, o cümlədən siyasi islahatlar bir sıra dövlətlər üçün gözəl nümunədir. Belə vəziyyət isə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun qalxmasina, bir çox dövlətlərin onunla və əldə etdiyi uğurlarla hesablaşmağa məhkum olduğuna bariz nümunədir. Bildiyimiz kimi Azərbaycan özünün milli və dini tolerantlığı ilə də dünya miqyasında da seçilir. İlham Əliyevin yürütdüyü siyasətin əsas amillərindən biri də ölkəmizdə mövcud olan tolerantlıgın və multikulturallıgın inkişaf etdiyi dövlət kimi tanınmasıdır. Bunu nəinki Şərqdə yerləşən dövlətlər hətta demokratiyanın beşiyi sayılan Qərbdə də qəbul edirlər. Ümumiyyətlə tarixə nəzər salsaq həyata möhürü vurulan bir sıra islahatlar çox-çox əvvəlki illərdən sonradan həm Şərq, həm də Qərb üçün bir təcrübə modeli olub. Belə ki, İlham Əliyevin keçirdiyi islahatlardan həm Şərq, həm də dahi təcrübələri ilə öyünən Qərbdə istifadə edir. Bu isə ölkəmizin imicini birəbeş artırır. Azərbaycanın həm Avropa həm də Şərq mədəniyyətinə sahib ölkə olması , iki mədəniyyətin qovşağında yerləşməsi, onlar arasında həm də körpü funksiyasını yerinə yetirir. Şərqlə Qərb arasında tarixi körpü funksiyasını yerinə yetirən Azərbaycanın İslam dünyası ilə Qərb sivilizasiyası , eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və ehtimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla , müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanı təsis etmək , xalqımızın dözümlülük mədəniyyətini , tarixi ənənələrini beynəlxalq aləmə tanitmaq istiqamətində mühüm addımlar atmışdır. (5.səh 1) Həqiqətən ən müxtəlif milli –etnik qrupların nümayəndələrinin yaşadıgi Azərbaycan unikal cografı, geosiyasi və mədəni bir məkandir. Azərbaycanda keçirilən islahatlar zamanı təbii ki mental xüsusiyyətlərdə nəzərə alınır. Azərbaycanın başqa ölkələrə ən böyük örnəyi tolerantlıq nümunəsidir. Bizdə milli və dini azlıqlara göstərilən münasibət və onlar arasında dialoqun təmin edilməsi vətəndaş cəmiyyətinin ən fundamentaı prinsipləridir. Tolerantıq müxtəliflilikdən doğan harmoniyadır və bu yalnız mənəvi borc deyil həm də siyasi və hüquqi tələbatdır. Xalqımız yaxşı bilir ki, Ümummilli Lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi abidələrimizin bərpasına müvəqqəti , kompaniya xarakterli iş kimi deyil uzunmüddətli din siyasətinin tərkib hissəsi kimi yanaşmışdır. Dövlət tərəfindən atılan məqsədyönlü addimlar dinindən , millətindən asili olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib. Bu gün həmin siyasət qayğıkeş əllərdədir və uğurla uzaqgörənliklə davam etdirilir. Ölkədə mövcud olan sabitlik, vətəndaş həmrəyliyi, etnik dini dözümlülük mühiti tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub ınsanların mədəni müxtəlifliyinə , birgəyaşayiş qaydalarına, onların inkişafi və harmonizasiyasina dövlət səviyyəsində diqqət göstərilməsi buna bariz nümunədir. Xalqımız bu gündə öz dəyərləri ilə dünyaya nümunədir. Bakinin ev sahibliyi etdiyi müxtəlif tədbirlərin, elmi konfranslarin, yarişlarin Azərbaycanin dünyada tanidilmasi ücün müstəsna əhəmiyyəti

vardir. Beynəlxalq aləmdə mədəniyyət tədbirləri arasinda özünə böyük nüfüz qazanan Qəbələ Beynəlxalq Musiqi Festivali Azərbaycanı Şərq ölkələrının mədəniyyət mərkəzlərindən biri kimi , habelə dünya musiqişünaslarına, incəsənət xadimlərinə, bir sözlə bütün Qərb ölkələrinə respublikamizin tolerant dəyərlərə malik ölkə kimi taninmasina nail olmuşdur. İlham Əliyevin təşəbbüsü ilə olkəmizin mədəniyyət paytaxti Şuşada Cidir düzündə mayin 12-də kecirilən Xaribülbül Musiqi Festivali həm də ölkəmizdə yaşayan azsaylı xalqların iştiraki ilə başa catan 44 günlük Vətən müharibəsində qazanılan Zəfər qələbəsinin möhtəşəmliyini tolerantlıgın nümunəsi kimi dünyaya nümayiş etdirdi. Bu kimi tədbirlər müxtəlif millətlərə mənsub insanların mədəni müxtəlifliyinin qorunmasına , inkişafina harmonizasiyasina, eləcədə azsaylı xalqlarin , dövlətlərin milli mədəniyyətinə inteqrasiyasina yönəldilib. Azərbaycanda yaşayan qədim yəhudi, kürd, taliş, xiristian, udin,və digər milli azlıqların yaşayış məskənləri olan Qirmizi qəsəbə , İvanovka və başqa kəndlər dövlətin daim nəzarəti altindadir. Onlar öz dillərindən istifadə edir ,maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayir, özlərinin milli-mədəni biliklərini , assosiasiyalarini və ittifaqlarini yaradirlar. Dövlət səviyyəsində milli-mədəni görüşlər kecirilir və burada milli azlıqlarla bağlı konkret problemlər dərhal həll olunur. Onların yaratdiqlari təşkilatlar, mədəni mərkəzlər dövlətimiz tərəfindən maliyyə yardimi ilə təmin olunur. Dövlətin azsayli xalqlarin mədəniyyətinin inkişafına dəstəyi onlara situmul verir. Çünki, bu dəstək onların adət ənənələrini yaşatmalarına və nəsildən nəsilə ötürülməsinə yardımcı olur. Ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə danışir, görüşür, müntəzəm olaraq ölkənin xristian və yəhudi icmalarini əsas dini bayramları münasibətilə təbrik edir. Müxtəlif dövrlərdə Azərbaycan ərazisində məskunlaşmiş dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş , hətta yerli əhali ilə qaynayıb-qarışmış , qohumluluq əlaqələri qurmuşlar. Bu da bir daha onu göstərir ki Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayirlar. Tolerantlıgın ən gözəl ənənələrindən biri də tez- tez bütün dini icmaların nümayəndələrinin bir araya gəlməsidir. Məsələn, müsəlmanların Ramazan ayında təşkil olunan iftar məclislərində Azərbaycanda yaşayan xristianların, iudaistlərin və digər dini icmaların nümayəndələri də iştirak edir. Üç əsas səmavi dinin nümayəndələrinin mehriban şəkildə bir araya gəlməsi olduqca nadir hadisədir və sevindirici hal budur ki bu Azərbaycanda baş verir. (7, səh 3 ) Müxtəlif dini konfssiyalarn nümayəndələri daim Azərbaycan xalqi ilə həmrəy olmuş, vahid vətənimizin azadligi və müstəqilliyi uğrunda əzmlə mübarizə aparmişlar. Fərqli dinlərə və Azərbaycanımızın müstəqilliyi ugrunda döyüşlərdə canından kecərək Şəhidlik məqamına yüksələn vətəndaşlarimizin son mənzili olan Şəhidlər xiyabanı bizim təkcə müqəddəs yerimiz yox, həm də qardaşlıgımızın, tolerantlıgımızın simvoludur. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət , anlaşma , sülh şəraitində yaşayir, və Milli Məclisdə təmsil olunurlar. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasinin Konsitutiyasinda müxtəlif dini qurumlar arasında tolerant münasibətlərinin möhkəmlənməsi istiqamətində qəbul edilən hüqüqi əsaslar öz əksini tapdi və mühüm addimlar atildi.

Azərbaycanin zəngin , mədəni –mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Bəli, öz tərkibində müxtəlif sivilizasıyaların nümayəndələrinin qarşılıqlı etimadini və birgəyaşayişini təmin edən Azərbaycan indi bu modeli dünya miqyasinda tətbiq edərək, sivilizasiyalararasi tərəfdaşliq və ünsiyyəti lokal cərcivədən qlobal miqyasa qədər genişləndirib. Əsrlər boyu fərqli mədəniyyətlərin, dinlərin kəsişməsində yerləşən Azərbaycanda hər zaman tolerantligin mövcud oldugunu dəfələrlə öz cixişlarinda vurgulayan Prezident İlham Əliyev bütün bunlarin bizim zənginliyimiz, fərəhli tariximiz kimi dünyaya catdirir. (1 səh. 8 ) Tək bir dövlət bayragi altında fərqli dinlərə, etnik qruplara dillərə, mədəniyyətlərə məxsus insanlarin yaşamasi o ölkəni zəiflətməz,əksinə gücləndirər. Bəli, Azərbaycanin bu xusisiyyəti tarixdir və nadirdir. Ən qədim kilsələr də,məscidlər də,sinaqoqlar da Azərbaycanda mövcud olub. Tarixin hansisa dövründö dagıdılsalarda yenidən bərpa edilib və fəaliyyətdədirllər. Həttda erməni kilsəsi də qorunub saxlanilir. Xalqimizin başqasinin nə torpaginda , nə dinində, nə tarixində nə də mədəniyyətində gözü yoxdur. Çünki Azərbaycan dünyaya sülh mədəniyyəti təqdim edir. Amma 30 il işgal dövründə Ermənistan Qarabağda daş üstə daş qoymayib. Milli mədəni dəyərlərimizə qarşi cinayət törədib,mədəni irsimizi yerlə yeksan edib . Şuşada Gövhər ağa, Agdamda Cümə, Zəngilanda İmam Hüseyn umumiyyətlə Qarabağın hər yerində məscidlərimizi erməniləşdirmək istəyiblər, buna

nail ola bilmədikdə isə dagidib , təhqir ediblər. Bu gün müstəqil Azərbaycan Qarabagda dagıdılmış bütün milli-mənəvi dəyərlərini bərpa edir. (2, səh 54) Azərbaycan həm də digər millətlərin dəyərlərini öz ərazilərində bərpa edəcək qədər ləyaqətlidir. Prezidentimiz İlham Əliyev buna münasibət bildirərək deyir: Öz dininə hörmət başqa dinə hörmətdən başlayir. İndi Qarabagda tarixi, memarliq dini abidələrinə bu qədər vandalcasina qəsd edilən Azərbaycan bütün mənəvi dəyərləri , o cümlədən Şuşada ermənilərin dagitdiqları kilsəni də bərpa edir.

Dünyada eləcə də Şərqdə baş verən müharibələr, toqquşmalar təkcə bölgədaxili ölkələri deyil, həm də ümumbəşəri mədəniyyətləri , azad dəyərləri də məhv edir. Dünyanin bütün nöqtələrinə öz mənfi təsirini göstərən belə arzuolunmaz proseslərin fonunda , Azərbaycanda milli-mənəvi , dini dəyərlərin, tolerantliq siyasətinin təbligi və təşfiqinin daha da genişləndirilməsi, bu mühitin qorunub saxlanilmasi istiqamətində davamli işlərin görülməsi hec şübhəsiz ki, ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsinə xidmət edir. Şərqlə Qərbin yaxınlaşması mədəniyyətlər və sivilizasiyaların qarşılıqlı anlaşması multikultural və tolerant dəyərlərin qorunub saxlanılmasının real nümunəsinə ölkə daxilində və xaricində aparılan işlər də əyani sübutdur. Həqiqətən ölkəmiz bu mövzuda dünyaya nümunə ola biləcək bir səviyyədədir. Tarixən ölkəmizdə müxtəlif millətlərin nümayəndələri daim dinc yaşamışdir və bu ənənə indi də uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata kecirilən dövlətin milli siyasəti yalniz ayri-ayri etnos və xalqlara deyil,milli mənsubiyyətindən asili olmayaraq ölkə vətəndaşlarının həyatının bütün sahələrində bərabərhüquqlu inkişafina xidmət edir. Ölkə başcısının dediyi kimi: “Tolerantliq ayri seckiliyə yol vermir, əksinə bütün xalqlari birləşdirir.” Ölkəmizdə də hər bir vətəndaş onun dininə,dilinə,etnik mənsubiyyətinə baxilmadan birlikdə mehribanliq və əmin amanliq şəraitində bir ailə kimi yaşayir. Tolerantligin ünvani – Azərbaycan –devizinə ölkəmizdə yaşayan hər bir millət və xalqin , etnosların ürəklə qoşuldugu şəksizdir və bu Azərbaycanin ən böyük sərvətidir.

Həqiqətən də tolerantlıq və multikultiralizmə münasibətdə Azərbaycanın öz dəyərləri var və bu dəyərləri bütün dünya ilə bölüşməyə hazırdır.

**Nəticə**

Tolerantlıq bu gün mütərəqqi dünyanın ən çox müzakirə etdiyi məsələlərdən biridir. Çünki, bəşəriyyətin gələcəyi tolerantlıq prinsiplərinin necə və hansı səviyyədə bərqərar olmasından asılıdır. Bu gün dünyamızın tolerantlıga ehtiyacı həmişəkindən daha çoxdur. Müstəqillik bərpa etdikdən sonra Azərbaycan dünyada tolerantlıq, dinlər və mədəniyyətlərarası dialoq prosesinin ən akif iştirakçılarından biri olmuşdur. Amma son on ildə Azərbaycan bu prosesin aktiv iştirakçısı yox, əsas təşəbbüskarı və lokomativi kimi çıxış edir. Bu baxımdan əminliklə söyləmək olar ki, ötən müddət ərzində Azərbaycan tolerantlıq, multukulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində nəinki hədəflərini dəyişib, hətta qarşısına qoydugu məqsədə dogru xeyli irəliləyə bilib. Hazirda dünya ictimayiyəti həm Azərbaycanı tolerant, multikultural ölkə kimi qəbul edir, həm də bu dəyərlərin dünyada təşviqi istiqamətində hökümətin qazandıgı ugurları etiraf edir. Azərbaycanın qədim ənənələrə və mədəniyyətə malik olan bir ölkədir. Şərqlə Qərb arasında körpü rolu oynayan Azərbaycanın ərazisində müxtəlif xalqların , dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda tolerantlıgın yüksək səviyyədə olması Qərb siyasətçilərinin və diplomatlarının etiraf etdikləri həqiqətdir. Çünki, Azərbaycan dinlərin və mədəniyyətlərin qovuşdugu tarixi məkan kimi indi də eyni funksiyanı ugurla yerinə yetirir. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini- etik qruplar burada özlərini nəinki yad hesab etməmiş , hətta, yerli əhali ilə qaynayıb qarəşmışdır.Tolerantlıq, dözümlülük çox böyük anlayış oldugundan o, həm insani münasibətlərin , həm insan cəmiyyətində gedən proseslərin , həm də dövlətlərarası , millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. Beləliklə son illərdə Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin miqyası və bu məqsədlə respublikamıza gələn Şərq və Qərbin tanınmış ictimai xadimləri, dini rəhbərləri, görkəmli alimlərin fikirləri Azərbaycanda tolerantlıq mədəniyyətinin yüksək oldugunu bir daha sübut etmişdir.

## ƏDƏBİYYAT:


1. Gündüz İsmayılov. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. Nurlar nəşriyyatı. Bakı 2014. 240 səh
2. Sakit Hüseynov. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: Tarix və müasirlik. Bakı .Təknur nəşriyyatı 2012. 170 səh
3. http://azertag.az/xeber/Tolerantlıq_mekanı___Azerbaycan-902377 Azərbaycan tolerantlıq məkanı . Bakı 2011. 399 səh
4. Azərbaycanda tolerantlıq ənənəsi. Bakı Nurlar nəşriyyatı 2015. 160 səh
5. https://scüra.gov.az.Tolerantlıgın Azərbaycan nümunəsi
6. H. Əliyev siyasəti : tolerantlıq, çıxışlar, nitqlər, görüşlər, təbriklər. Bakı 2015.
7. Məmmədəli Qəribli. Azərbaycan tolerantlıq modelinin özünəməxsus özəllikləri. Baki Xəbər 2021. 10-cu nəşr.


## РЕЗЮМЕ

***Айнура МАМЕДОВА***

***Азербайджан как место толерантности на Западе и Западном мире***

***Ключевые слова:*** *толерантность, глобальная, восточная, западная, поликультурная, цивилизация*

В статье рассматривается признание Азербайджана страной между Востоком и Западом с ее мультикультурными традициями и толерантностью. Говоря о деятельности азербайджанского народа в стране и международном сообществе по пропаганде и популяризации традиций толерантности и восстановлению толерантности после восстановления независимости, в статье дается обширная информация о работе, проделанной в этом направлении. набор непроизводных значений. Азербайджан исторически был местом, где в мире и дружбе живут представители разных наций и религий. Также сохранение в нашей стране христианских исторических памятников, албанских церквей, синагог, православных, католических храмов, забота и внимание к ним является наглядным примером толерантности. Также ряд международных мероприятий, организованных Фондом Гейдара Алиева, привели к признанию нашей республики в мире толерантной страной. Руководство страны регулярно встречается с лидерами религиозных общин, интересуется их нуждами и проблемами, поздравляет христианскую и иудейскую общины страны с крупными религиозными праздниками. По этой причине во все времена и сегодня, независимо от общественно-политического устройства, люди, говорящие на разных языках и представляющие разные религии, живут одной семьей в мире, спокойствии и взаимопонимании. Сегодня Азербайджан признан в мире как страна, приверженная принципам гуманизма, толерантная и поликультурная. Тот факт, что наша республика на протяжении столетий находится на перекрестке множества различных цивилизаций и культур, играет роль моста между Азией и Европой, обусловил многообразие культур здесь. Сегодня в Азербайджане нет альтернативы толерантности. Поэтому с точки зрения нравственных ценностей является предметом гордости то, что наша страна стала лидером в этой области и признана в мире толерантной страной. Современный Азербайджан привержен этим традициям, и это одно из наших величайших достояний.

## ABSTRACT

*Aynura MAMMADOVA*

### *Azerbaijan as a Place of Tolerance in the Western and Eastern Worlds*

**Keywords:** *tolerance, global, eastern, western, multicultural, civilization*

The article deals with the recognition of Azerbaijan as a country between East and West with its multicultural traditions and tolerance. Speaking about the activities of the Azerbaijani people in the country and the international community to promote and popularize the traditions of tolerance and restore tolerance after the restoration of independence, the article provides extensive information about the work done in this direction. set of non-derivative values. Azerbaijan has historically been a place where representatives of different nations and religions live in peace and friendship. Also, the preservation in our country of Christian historical monuments, Albanian churches, synagogues, Orthodox, and Catholic churches, and our care and attention to them, is a clear example of tolerance. Also, a number of international events organized by the Heydar Aliyev Foundation led to the recognition of our republic as a tolerant country in the world. The country's leadership regularly meets with leaders of religious communities, asks about their needs and problems, and congratulates the Christian and Jewish communities of the country on major religious holidays. For this reason, at all times and today, regardless of the socio-political structure, people who speak different languages and represent different religions live as one family in peace, tranquility, and mutual understanding. Today, Azerbaijan is recognized in the world as a country committed to the principles of humanism, tolerance,e, and multiculturalism. The fact that our republic has been at the crossroads of many different civilizations and cultures for centuries, playing the role of a bridge between Asia and Europe, has determined the diversity of cultures here. Today, there is no alternative to tolerance in Azerbaijan. Therefore, from the point of view of moral values, it is a matter of pride that our country has become a leader in this area and is recognized in the world as a tolerant country. Modern Azerbaijan is committed to these traditions, and this is one of our greatest assets.